# BDU-nun elmi kitabxanasında elektron informasiya vasitələri tətbiq edilir

Tarixə nəzər salsaq görərik ki, universitet kitabxanalarında müəllim və tələbə kollektivinə elektron vasitələrlə xidmət göstərməyə keçən əsrin 60-70-ci illərindən təşəbbüs göstərilmişdir. O zaman BDU-nun Elmi kitabxanasında da "ERA" və "VEQA" surətçıxarma aparatlarından bu məqsədlə istifadə edilməyə başlanmışdır. Həmin aparatlar kitabxanalarda yeganə texniki vəsait hesab olunurdu.

1990-cı illərdən dünyada bütün fəaliyyət sahələrində yeni texnologiyaların tətbiqinə başlandı. Bu iş ali məktəb kitabxanalarında da reallaşdırıldı. 2000-ci ildən isə universitet kitabxanalarında dünya standartlarına uyğun iş aparmaq üçün işçilərin texniki savadını artırmaq və kitabxanaları müasir informasiya texnologiyaları avadanlıqları ilə təmin etmək vacib məsələ kimi qarşıya qoyuldu. ABŞ-ın Açıq Cəmiyyət İnstitutunun "SOROS" fondu Bakıda kurslar təşkil etdi. Bu kurslarda ali məktəb kitabxanaları, ilk növbədə BDU-nun Elmi kitabxanasının əməkdaşları iştirak edərək kompüter biliklərinə yiyələndilər və tədricən kitabxanaya kompüterlər alınmağa başlandı. Elə həmin ildən etibarən Elmi kitabxananın fonduna daxil olan yeni kitabların MARK proqramı əsasında EK (elektron kataloqu) yaradıldı. Sonradan bu proqram İRBIS-lə əvəz olundu.

Müasir informasiya texnologiyalarının sürətli inkişafı və geniş tətbiqi dünya miqyasında qlobal informasiya axınına qoşulmağı günün tələbinə çevirdi. 2003-cü ilin noyabrında Cenevrədə keçirilən Beynəlxalq Kitabxana Federasiyası Assambleyasının sammitində kitabxanalar "informasiya cəmiyyətinin ürəyi" adlandırıldı. Bu nöqteyi-nəzərdən universitet kitabxanalarının bir məlumat nöqtəsi kimi kollektiv üçün nə qədər böyük əhəmiyyət daşıdığı danılmazdır.

2003-cü ilin dekabrında Brüsseldə hökumət və dövlət başçılarının "informasiya cəmiyyəti" haqqında keçirilən sammitində qarşıda duran bir sıra məsələlər: dövlətin ayrı-ayrı strukturlarının elektron fəaliyyəti ilə yanaşı "elektron universiteti", "elektron kitabxanalar" haqqında deklorasiyada oxucuların istifadəsi üçün internet xidmətinin təşkili vacib məsələ kimi irəli sürülürdü.

BDU-nun  Elmi kitabxanası bu sahədə fəaliyyətini genişləndirməyə başladı. Xüsusilə, Prezident İlham Əliyevin təsdiqlədiyi "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nda qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün böyük işlər görüldü.

Ötən dövr ərzində kitabxananın saytı açıldı, bura daxil olan ədəbiyyatın elektron kataloqunun (EK) yaradılması işi davam etdirildi, məqalələrin sistemli kartotekasının elektron variantı, kitabxananın fondunda olan dissertasiyaların elektron kataloqu işlənib hazırlandı, dövri mətbuatın elektron qeydiyyatı həyata keçirildi, kitabxanada olan elektron resursların sayı artdı, dünyanın məşhur Oksford, Edenburq, Kembric və s. universitetlərinin elektron məlumat bazaları və EPSCO kimi möhtəşəm məlumat bazası əldə edilərək oxucuların istifadəsinə verildi.

Universitet tələbələrini dərslik və dərs vəsaitləri ilə təmin etmək üçün 400-dən çox dərsliyin elektron variantı (kitabxanası) yaradıldı.

Bu illər ərzində kitabxananın beynəlxalq əlaqələri genişlənmiş, fondu latın qrafikası ilə çap olunmuş əsərlərlə zənginləşmiş, şöbələr kompüterlə təchiz olunmuş, əməkdaşlar yeni texnologiyalarla bağlı xaricdə və respublikada keçirilən konfrans, simpozium, treninqlərdə iştirak etmişlər.

Ali məktəb kitabxanalarının qarşısında duran əsas vəzifələrdən biri də tələbələri virtual tədris ədəbiyyatı ilə təmin etməkdir. Bu sahədə müəyyən işlər görülsə də, yaxşı olar ki, kitabxanamız bir metodik mərkəz kimi Azərbaycan ali məktəb kitabxanaları ilə birlikdə korperativ yolla virtual dərslik bazası yaratsın, bundan da bütün ali məktəb tələbələri istifadə edə bilsin.

Bu işləri görmək üçün Elmi kitabxanaya müasir informasiya texnologiyaları sahəsində mükəmməl biliyə malik gənc kadrlar və ən son informasiya texnologiyalarına aid avadanlıqlar lazımdır.

Gələcəkdə oxuculara daha yüksək səviyyədə xidmət göstərmək üçün kitabxananın şöbələri və xüsusilə oxu zalları Wİ Fİ  internet şəbəkəsi ilə daimi təmin olunmalıdır. Hazırda kitabxananın yalnız şərqşünaslıq fakültəsinin qiraət zalında belə şəbəkə var.

Bütün bunlarla yanaşı, Elmi kitabxana Azərbaycanda kitabxana sahəsində həyata keçirilən bütün layihələrdə iştirak etməyə çalışır.

***Zülfünaz HƏSƏNOVA,***
***BDU-nun Elmi-biblioqrafiya və informasiya şöbəsinin müdiri***